Litva

Reception and Integration Agency

euaa EUROPEAN UNION AGENCY FOR ASYLUM

# QƏBUL ZAMANI HÜQUQ VƏ VƏZİFƏLƏRİNİZ



## Bu məlumat sizin üçündür, əgər:

- siz yetkin şəxssiniz (yaşınız 18-dən yuxarıdır)
- Siz Litvada beynəlxalq himayə (həmçinin sığınacaq adlanır) üçün müraciət etmisiniz və hazırda beynəlxalq himayə üçün müraciət edən şəxssiniz.

Qeydiyyat üçün versiya

AZERBAIJANI

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Qəbul nədir? | 3 |
| Nə əldə edəcəksiniz? | 6 |
| Tibbi xidmətlər almaq hüququ | 7 |
| Uşaqlar üçün təhsil hüququ | 10 |
| Əmək hüququ | 11 |
| Dil kursları və peşə təhsili | 12 |
| Beynəlxalq himayə üçün müraciət edən şəxs olduğunuzu təsdiq edən sənəd | 13 |
| Harada qalacaqsınız? | 13 |
| Hansı şərtlərdə müraciət edən şəxs saxlanıla bilər | 16 |
| Qəbul üzrə hansı vəzifələriniz var? | 17 |
| Öz vəzifələrinizi yerinə yetirmədiyiniz halda nə baş verir? | 18 |
| Səlahiyyətli orqanların icazəsi olmadan başqa bir Aİ+ ölkəsinə getsəniz nə baş verir? | 19 |
| İcazəsiz tərk etdiyiniz Aİ+ ölkəsinə geri qaytarıldığınızda nə baş verir? | 19 |
| Siz səlahiyyətli orqanın qərarına qarşı şikayət verə bilərsiniz | 20 |
| Hüquqi yardım ala bilərsiniz | 22 |
| Əlaqə məlumatları | 24 |

# QƏBUL NƏDİR?

Qəbul, beynəlxalq himayə üçün müraciətinizin səlahiyyətli orqanlar tərəfindən nəzərdən keçirilməsi prosesinin başa çatmasını gözləyərkən müraciət edən şəxs olaraq aldığınız dəstəkdir. Buraya qəbul üzrə hüquq və vəzifələr daxildir, hansı ki bu kitabçada izah edilir.

Litvada qəbul üzrə məsul səlahiyyətli orqan - Qəbul və İnteqrasiya Agentliyi – dir. Sığınacaq üçün ərizənizin nəzərdən keçirilməsi üzrə məsul səlahiyyətli orqan – Miqrasiya İdarəsidir.

Dövlət Sərhəd Mühafizəsi Xidməti və ya Qəbul və İnteqrasiya Agentliyinin əməkdaşları bu kitabçada olan məlumatla tanış olduğunuzu təsdiqləməyinizi və imzalamağınızı xahiş edəcəklər. Aydın olmayan bir şey varsa, əməkdaşlara sual verin.



**Bu ölkədə özünüzü təhlükəsiz hiss edə bilərsiniz.**

Qaldığınız müddətdə Qəbul və İnteqrasiya Agentliyinin əməkdaşları sizə qəbul üzrə xidmətlər və vəziyyətinizdən asılı olaraq sizə göstəriləcək dəstək barədə məlumat verəcəklər.



Siz həmçinin məlumat və kömək üçün digər təşkilatlara da ödənişsiz müraciət edə bilərsiniz. Həmin təşkilatların siyahısını bu kitabçanın sonunda tapa bilərsiniz.



**Tərcüməçi** əməkdaşlar ilə anladığınız dildə ünsiyyət qurmağınıza kömək edəcək. Tərcüməçi dediklərinizin heç birini başqa heç kimlə paylaşmayacaq. Tərcüməçilər ya şəxsən, ya telefonla, ya da onlayn iştirak edə bilərlər.

**Sığınacaq verilməsi prosesi və riayət edilməli olan qaydalar haqqında məlumatları ayrı kitabçalarda tapa bilərsiniz.**

**Hazırda siz Litvadasınız, bu, Aİ+ ölkələrindən biridir.**
**Aİ+ ölkələrinə daxildir:**

- Avropa İttifaqına (Aİ) üzv olan 27 dövlət: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və
- digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç.

## Diqqət!

Bütün Aİ+ ölkələrində müraciət edənlərin qəbul üzrə oxşar hüquq və vəzifələri var.

Sığınacaq üçün müraciət və digər Aİ+ ölkələrinə səyahətlə bağlı qaydalar mövcuddur.

- Səlahiyyətli orqanlar sizə fərqli məlumat vermədikləri təqdirdə**, siz ilk gəldiyiniz Aİ+ ölkəsində sığınacaq üçün müraciət etməli və ərizənizi qeydiyyatdan keçirməlisiniz.**

- **Yalnız bir Aİ+ ölkəsi sığınacaq üçün ərizənizi nəzərdən keçirməkdən məsuldur.** Litvanın səlahiyyətli orqanları müvafiq prosesə uyğun olaraq sığınacaq üçün ərizənizə görə hansı Aİ+ ölkəsinin məsul olduğunu müəyyən edəcəklər.

- Siz **Litvada qalmalısınız. Səlahiyyətli orqanların icazəsi olmadan siz başqa bir Aİ+ ölkəsinə gedə bilməzsiniz.** Əgər getsəniz, bu, mənfi nəticələrə səbəb olacaq. Litvada sığınacaq verilməsi prosesiniz dayandırıla bilər. Başqa bir ölkədə hərəkət azadlığınız məhdudlaşdırıla bilər və qəbul üzrə bəzi xidmətlər ləğv ediləcək.

## NƏ ƏLDƏ EDƏCƏKSİNİZ?

Səlahiyyətli orqanlar beynəlxalq himayə üçün ərizənizi nəzərdən keçirərkən, eləcə də şəxsi və maliyyə vəziyyətinizdən asılı olaraq siz aşağıdakıları əldə edəcəksiniz:



- yaşayış yeri



- şəxsi gigiyena vasitələri



- yemək və ya yemək almaq üçün pul



- geyim




- gündəlik xərclər üçün pul

Səlahiyyətli orqanlar şəxsi və maliyyə vəziyyətinizi daha yaxşı anlamaq üçün sizə suallar verəcəklər.

# TİBBİ XİDMƏTLƏR ALMAQ HÜQUQU

Səlahiyyətli orqanlar sizin **lazımi tibbi yardım** almanızı təmin edəcəklər. Buraya, məsələn, tibb bacısına və ya həkimə müraciət, ağır xəstəliklərin və xroniki vəziyyətlərin müayinəsi, həkim tərəfindən təyin olunmuş dərmanlar və psixi sağlamlıq üzrə dəstək daxil ola bilər.



**Sağlamlıq probleminiz varsa, əməkdaşlara bu barədə məlumat verin.**

Təcili tibbi yardıma ehtiyacınız və ya təcili müalicə tələb edən hər hansı bir yaranız varsa, əməkdaşlara bu barədə məlumat verin və ya 112 təcili yardım nömrəsinə pulsuz zəng edin.



Siz həkim və ya tibb bacısı tərəfindən tibbi müayinədən keçməli olacaqsınız . Onlar sağlamlığınızı yoxlayacaq və sizə kömək edəcəklər. Onlar sizə indiki və ya keçmiş xəstəliklər, peyvəndləriniz və qəbul etdiyiniz dərmanlar haqqında suallar verəcəklər. Onlar həmçinin hər hansı bir yaranız, ağrınız, vəziyyətiniz və ya narahatlığınız haqqında suallar verəcəklər.

Bəzi tibbi müayinələr məcburidir, məsələn, İnsan İmmunçatışmazlığı Virusunun (HIV) testi, Tam Qan Sayımı (CBC), C-reaktiv protein (CRP) testi və Hepatit C virusunun (HCV) qan testi.

## Xüsusi ehtiyaclarınız varsa, ixtisaslaşmış dəstək almaq hüququnuz var.







**Əməkdaşları bu hallarda məlumatlandırın:**

- xəstəsiniz və ya yaralanmısınız
- hamiləsiniz və ya hamilə ola bilərsiniz
- xüsusi dəstəyə ehtiyacı olan ailə üzvləriniz varsa
- hər hansı əlilliyiniz var (məsələn, hərəkət məhdudiyyəti, eşitmə qüsuru, görmə qabiliyyətinin pozulması).
- daim özünüzü əsəbi, narahat, həyəcanlı hiss edirsiniz, yata bilmirsiniz və ya mənfi düşüncələriniz var
- keçmişdə məruz qaldığınız zorakılıq və ya işgəncələrdən əziyyət çəkirsiniz
- özünüzü təhlükədə hiss edirssiniz, yaxud yad adamdan və ya tanıdığınız birindən qorxursunuz
- sizi istəmədiyiniz şeyləri etməyə məcbur ediblər və ya indi məcbur edirlər
- inancınıza, sevdiyiniz insana, geyim və ya davranış tərzinizə görə özünüzü təhlükədə hiss edirsiniz
- yaşınız 18-dən aşağıdır və siz valideynləriniz olmadan, yəni tək və ya digər ailə üzvlərinizlə gəlmisiniz.

İxtisaslaşmış dəstək yalnız o halda təqdim edilə bilər ki, Qəbul və İnteqrasiya Agentliyi əməkdaşları xüsusi ehtiyaclarınızdan xəbərdardırlar.





İxtisaslaşmış personal *sizə aşağıdakı məqsədlərlə suallar* verəcək:

- **xüsusi ehtiyaclarınızı** qiymətləndirmək üçün
- sizin üçün ən uyğun **ixtisaslaşmış dəstəyi** müəyyən etmək üçün.

Buna **xüsusi ehtiyacların qiymətləndirilməsi** deyilir.

Lazım gələrsə, tərcüməçi anladığınız dildə ünsiyyət qurmağınıza kömək edəcək.



İxtisaslaşmış dəstəyə ehtiyacınız varsa, hər zaman Qəbul və İnteqrasiya Agentliyi-nin **əməkdaşları ilə əlaqə saxlayın**.

Səlahiyyətli orqanlar dəstəyə ehtiyacınız olduğunu hesab etdikləri müddətcə siz bu dəstəyi alacaqsınız.

Siz həkimə, tibb bacısına və ixtisaslaşmış personala etibar edə və onlarla açıq danışa bilərsiniz. Bütün məlumatlar gizli saxlanılacaq, yəni sizin razılığınız olmadan başqaları ilə paylaşılmayacaq.

Yeganə istisna, həyatınızın və ya başqasının həyatının təhlükədə olmasıdır.

# UŞAQLAR ÜÇÜN TƏHSİL HÜQUQU

Bütün uşaqlar, yəni yaşı 18-dən az olan oğlanlar və qızlar, təhsil almaq hüququna malikdirlər.

Onlar müvafiq dəstək alacaqlar, məsələn, dil üzrə hazırlıq kursları.



**Valideynlər öz övladlarını məktəbə göndərməyə borcludurlar.**

# ƏMƏK HÜQUQU

Vəziyyətinizdən asılı olaraq, siz işləmək hüququna sahib ola bilərsiniz. Əgər beynəlxalq qorunma müraciətinizin qeydiyyata alındığı andan etibarən altı ay ərzində sığınacaq müraciətinizə qərar qəbul edilməzsə və bu gecikmə sizin günahınız deyilsə, Litvada işləyə bilərsiniz.

Qəbul və İnteqrasiya Agentliyi əməkdaşları Litvada tətbiq edilən qaydalar barədə sizə məlumat verəcəklər.



Bəzi istisnalar var, məsələn, səlahiyyətli orqanlarla əməkdaşlıq etmədiyiniz təqdirdə işləməyinizə icazə verilməyəcək.

Əgər siz işləyirsiniz və qəbul mərkəzində qalırsınızsa və gəliriniz müəyyən məbləği aşırsa, yaşayış yeri üçün xərclərinizin bir hissəsini ödəməli ola bilərsiniz.



Yaşı 14 yaşdan az olan bütün oğlan və qızların işləməsinə icazə verilmir.

# DİL KURSLARI VƏ PEŞƏ TƏHSİLİ

Vəziyyətinizdən asılı olaraq səlahiyyətli orqanlar iştirakınızı istəyə bilər:

- dil kurslarında,
- yaşadığınız cəmiyyət haqqında kurslarda (qanunlar, qaydalar və mədəniyyət)
- yeni bacarıqlara yiyələnmək üçün kurslarda (peşə təhsili).

Siz iştirak edə bilərsiniz:

- dil kurslarında,
- yaşadığınız cəmiyyət haqqında kurslarda (qanunlar, qaydalar və mədəniyyət)
- yeni bacarıqlara yiyələnmək üçün kurslarda (peşə təhsili).



Əməkdaşlar sizə bu kurslar barədə və nə vaxt başlaya biləcəyiniz haqda məlumat verəcəklər.

## BEYNƏLXALQ HİMAYƏ ÜÇÜN MÜRACİƏT EDƏN ŞƏXS OLDUĞUNUZU TƏSDİQ EDƏN SƏNƏD



Siz "Əcnəbinin qeydiyyat şəhadətnaməsi" adlanan və beynəlxalq himayə üçün müraciət edən şəxs olduğunuzu təsdiq edən sənəd alacaqsınız. Bu sənəddə adınız və şəxsi məlumatlarınız qeyd olunacaq. Sənəd hər zaman üstünüzdə olmalıdır.

Bu sənəd səyahət üçün nəzərdə tutulmayıb.

**Diqqət!** Onu itirməməyə səy göstərməli və başqasına verməməlisiniz.

## HARADA QALACAQSINIZ?

Beynəlxalq himayə üçün ərizəniz nəzərdən keçirildiyi müddət ərzində qalacağınız yer bir çox amillərdən asılıdır.

**Harada qaldığınızdan asılı olmayaraq, sizin aşağıdakılara hüququnuz var:**



- **təhlükəsiz hiss etməyə:** əməkdaşlar da daxil olmaqla, heç kimin sizi təhdid etməsinə, təhqir etməsinə və ya sizə zərər verməsinə icazə verilmir



- **əriniz, arvadınız, övladlarınız, 18 yaşadək qardaş-bacılarınız və ya gündəlik qayğıya ehtiyacı olan yetkin bir qohumunuzla qalmağa**
- qayğıya ehtiyacı olan yetkin birisinizsə, **qohumlarınızla qalmağa**



- ailənizlə **ünsiyyət qurmaq, eləcə də harada olduğunu bilmirsinizsə, onu axtarmağa cəhd etmək üçün** kömək almağa.

**Siz rəsmi şikayət edə bilərsiniz, əgər hesab edirsiniz ki:**



- əməkdaşlardan hər hansı biri sizi təhdid edib, təhqir edib və ya sizə zərər verib.
- yaşayış şəraiti və/və ya göstərilən xidmətlər kifayət etmir və ya tələb olunan standartlara cavab vermir.
- təhlükəsizliyinizə və ya başqalarının təhlükəsizliyinə təsir edən təhlükəsizlik problemləri var.

Qəbul və İnteqrasiya Agentliyi rəsmi şikayətin verilmə qaydası barədə sizə məlumat təqdim edəcək.

Daha çox məlumat almaq üçün siz istənilən vaxt səlahiyyətli orqanlara, qeyri-hökumət təşkilatlarına və ya BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına (UNHCR) müraciət edə bilərsiniz.

**Vəziyyətinizdən asılı olaraq, səlahiyyətli orqanlar sizin müəyyən bir yerdə qalmağınıza qərar verəcəklər.**



**Sizə həmin müəyyən yerdən müəyyən məhdudiyyətlərlə çıxmağa icazə veriləcək. Həmin müəyyən yerdə olmağınız mütəmadi olaraq yoxlanılacaq.**

Səlahiyyətli orqanlar buna bir neçə səbəbə görə qərar verə bilərlər. Məsələn:

- sizin qaçıb gizlənmək riskiniz olduqda
- sığınacaq müraciətinizə baxılmasına görə başqa bir ölkə məsuliyyət daşıya bilər və səlahiyyətli orqanlar sizin qaçıb gizlənə biləcəyinizi düşündükdə
- bu ölkəni icazəsiz tərk etdiyiniz, geri qaytarıldığınız və yenidən qaçıb gizlənmək riskiniz olduqda.

Səlahiyyətli orqanlar bu qərarı sizə başa düşdüyünüz dildə, yazılı şəkildə bildirəcəklər. Onlar qərara riayət etməyəcəyiniz təqdirdə hüquqlarınız, öhdəlikləriniz və yarana biləcək mənfi nəticələr barədə sizi məlumatlandıracaqlar.

Bu qərarı şikayət edə bilərsiniz.

Siz səlahiyyətlilərdən müəyyən müddət ərzində başqa yerdə qala biləcəyinizi soruşa bilərsiniz. Səlahiyyətlilər sizin müraciətinizi təsdiq edə də, etməyə də bilərlər. Əgər müraciətiniz rədd edilərsə, bu qərarı şikayət edə bilərsiniz.

**Diqqət!** Əgər müəyyən edilmiş yerdə qalmaq qərarına və tətbiq olunan məhdudiyyətlərə əməl etməsəniz və yenidən qaça biləcəyinizlə bağlı risk varsa, saxlanıla bilərsiniz.

## HANSI ŞƏRTLƏRDƏ MÜRACİƏT EDƏN ŞƏXS SAXLANILA BİLƏR

Saxlanılma dedikdə, sərbəst tərk edə bilməyəcəyiniz müəyyən bir təsisata yerləşdirilməyiniz nəzərdə tutulur. Sizi saxlamaq üçün səlahiyyətli orqanların əsaslı səbəbi olmalıdır. Onlar əmin olmalıdırlar ki, sizin məsələnizdə başqa seçim mümkün deyil. Səlahiyyətli orqanlar məhkəmə qərar verməzdən əvvəl şəxsi vəziyyətinizi nəzərə alacaqlar.



Saxlanma üçün səbəblər, məsələn, bunlar ola bilər:

- saxlanma olmadan sığınacaq üçün ərizənizin vacib aspektlərini (məsələn, şəxsiyyətinizi) təsdiqləmək mümkün deyil
- siz müəyyən bir yerdə qalmaq öhdəliyinizə əməl etməmisiniz və risk var ki, siz yenidən qaçacaqsınız və səlahiyyətli orqanlar sizinlə əlaqə qura bilməyəcəklər
- sığınacaq üzrə ərizənizin nəzərdən keçirilməsinə görə məsuliyyət daşıyan Aİ+ ölkəsinə göndərilmə ilə bağlı qərar almısınız və risk var ki, siz göndərilmədən əvvəl qaçacaqsınız
- siz təhlükəsizlik riski yaradırsınız.

Əgər saxlanılsanız, bu qərara qarşı şikayət verə bilərsiniz. Siz pulsuz hüquqi yardım və təmsilçilik istəyə bilərsiniz.

# QƏBUL ÜZRƏ HANSI VƏZİFƏLƏRİNİZ VAR?





**Aşağıda yerinə yetirməli olduğunuz bəzi vəzifələr qeyd olunur.**

- ✔ Bu ölkənin qanunlarına əməl edin.
- ✔ Litvada qalın və səlahiyyətli orqanların icazəsi olmadan başqa bir Aİ+ ölkəsinə səfər etməyin.
- ✖ Coğrafi rayonu və ya səlahiyyətli orqanların göstərişinə əsasən qalmalı olduğunuz müəyyən yeri icazəsiz tərk etməyin.
- ✔ Səlahiyyətli orqanlarla hərtərəfli əməkdaşlıq edin və onların təlimatlarına əməl edin.
- ✔ Qaldığınız yerin qaydalarına əməl edin.
- ✔ Digər sakinlərə, əməkdaşlara və digər şəxslərə hörmət edin.
- ✔ əlahiyyətli orqanları maliyyə imkanlarınız haqqında məlumatlandırın.
- ✔ Səlahiyyətli orqanları cari ünvanınız və əlaqə məlumatlarınız (telefon nömrəniz, e-poçt ünvanınız) və hər hansı dəyişikliklər haqqında məlumatlandırın ki, onlar sizinlə istənilən vaxt əlaqə saxlaya bilsinlər.
- ✔ Səlahiyyətli orqanlar tərəfindən belə bir öhdəlik müəyyən edilibsə, inteqrasiya üçün müəyyən edilmiş məcburi kurslarda iştirak edin.

## ÖZ VƏZİFƏLƏRİNİZİ YERİNƏ YETİRMƏDİYİNİZ HALDA NƏ BAŞ VERİR?

Qəbul və İnteqrasiya Agentliyi vəziyyətinizi qiymətləndirəcək və müəyyən dəstək növlərini məhdudlaşdırmaq və ya ləğv etmək qərarını verəcək. Qəbul və İnteqrasiya Agentliyi belə qərar haqqında sizə yazılı olaraq məlumat verəcək və hansı dəstəyi məhdudlaşdıracaqlarını və ya ləğv edəcəklərini bildirəcək.



### Diqqət!

**Siz daha az dəstək ala bilərsiniz**, misal üçün, əgər:

- coğrafi rayonu və ya səlahiyyətli orqanların göstərişinə əsasən qalmalı olduğunuz müəyyən yeri icazəsiz tərk edirsiniz
- səlahiyyətli orqanlarla əməkdaşlıq etmirsiniz
- maliyyə imkanlarınız haqqında yalan danışırsınız

- qaldığınız yerin qaydalarını pozursunuz
- məcburi kurslarda iştirak etmirsiniz
- artıq başqa bir Aİ+ ölkəsinə sığınacaq üçün müraciət etmisiniz və həmin ölkəni tərk etmisiniz.

Aqressiv davrandığınız, başqa insanları təhdid etdiyiniz, eləcə də qaldığınız yerin qaydalarını dəfələrlə və ya ciddi şəkildə pozduğunuz halda **siz aldığınız dəstəyi itirə bilərsiniz**. Bu halda müdaxilə üçün polisə də müraciət edilə bilər.



## SƏLAHİYYƏTLİ ORQANLARIN İCAZƏSİ OLMADAN BAŞQA BİR Aİ+ ÖLKƏSİNƏ GETSƏNİZ NƏ BAŞ VERİR?




**Litvada**:

- sığınacaq verilməsi prosesiniz dayandırıla bilər.

**İcazə olmadan səfər etdiyiniz Aİ+ ölkəsində:**

- səlahiyyətli orqanlar sizi icazə olmadan tərk etdiyiniz ölkəyə geri göndərməyə qərar verə bilərlər

Səlahiyyətli orqanlar sizi geri göndərmək qərarı barədə sizə məlumat verdikləri andan etibarən siz müəyyən hüquqlardan məhrum qalacaqsınız, məsələn:

- **siz bir çox xidmət və dəstək növünü əldə etməyəcəksiniz**
- **işləməyinizə icazə verilməyəcək**
- **dil kurslarına və ya yeni bacarıqlara yiyələnmək üçün kurslara qatılmağınıza icazə verilməyəcək.**

## İCAZƏSİZ TƏRK ETDİYİNİZ Aİ+ ÖLKƏSİNƏ GERİ QAYTARILDIĞINIZDA NƏ BAŞ VERİR?



Səlahiyyətli orqanlar sizin müəyyən bir yerdə qalmalı olacağınıza qərar verə bilərlər və sizin həmin yerdə olmağınız mütəmadi olaraq yoxlanılacaq. Müəyyən məhdudiyyətlər tətbiq edilməklə, siz həmin yerdən çıxa biləcəksiniz.

## SİZ SƏLAHİYYƏTLİ ORQANIN QƏRARINA QARŞI ŞİKAYƏT VERƏ BİLƏRSİNİZ



Əgər səlahiyyətli orqanlar müraciət edən şəxs kimi hüquqlarınızı məhdudlaşdırmaq qərarı alır və siz bunu ədalətsiz hesab edirsinizsə, **bu qərara qarşı şikayət verə bilərsiniz**.

Səlahiyyətli orqanlar bunlara qərar verdikdə şikayət verə bilərsiniz:

- sizin yaşayış yeri və qəbul üzrə digər dəstəyi almaq hüququnuzun olmadığına
- qəbul üzrə sizə verilən dəstəyin azaldılmasına və ya ləğv edilməsinə
- müəyyən coğrafi rayonu və ya müəyyən yeri müvəqqəti olaraq tərk etməyinizə icazənin verilməməsinə
- müəyyən bir yerdə qalmağınızın tələb olunduğuna (məsələn, müəyyən qəbul mərkəzində) və oradan müəyyən məhdudiyyətlərlə çıxa biləcəyinizə
- sizi saxlamağa görə
- Litvada apellyasiya məhkəmə orqanına verilir.

Səlahiyyətli orqanların icazəsi olmadan başqa bir Aİ+ ölkəsinə səfər etmisinizsə və orada qəbul üzrə müəyyən hüquqları itirmisinizsə, həmin ölkədə bu qərara qarşı şikayət verə bilərsiniz

# HÜQUQİ YARDIM ALA BİLƏRSİNİZ

Qəbul üzrə hüquqlarınızın məhdudlaşdırılması ilə bağlı səlahiyyətli orqanların qərarına qarşı şikayət vermək istəyirsinizsə, vəziyyətinizdən asılı olaraq məhkəmədən əvvəl pulsuz hüquqi yardım və təmsilçilik ala bilərsiniz.

Bu deməkdir ki, sizə hüquq məsləhətçisi və ya hüquqşünas kömək edəcək. Hüquq məsləhətçiləri və ya hüquqşünaslar məhkəmədə sizə hüquqi yardım göstərirlər, maraqlarınızı qoruyurlar və səlahiyyətli orqanlardan və hakimdən asılı deyillər.

Siz həmçinin öz hesabınıza hüquq məsləhətçisi və ya vəkillə məsləhətləşə bilərsiniz.






Səlahiyyətli orqanlar qərara qarşı şikayətin verilməsi qaydası barədə sizə məlumat təqdim edəcəklər.

Daha çox məlumat almaq, o cümlədən pulsuz hüquqi yardım və təmsilçilik üçün siz istənilən vaxt səlahiyyətli orqanlara, qeyri-hökumət təşkilatlarına və ya UNHCR-a müraciət edə bilərsiniz.

Litvanın səlahiyyətli orqanları 19-cu səhifədə təsvir edilən vəziyyətlərlə əlaqədar olaraq müəyyən dəstək növlərini azaltmaq və ya ləğv etmək qərarına gəldikdə, sizin müəyyən hüquqlarınız olacaq. Misal üçün, sizin həkimə və ya tibb bacısına müraciət etmək, tibbi yardım almaq, müəyyən dəstək (məsələn yemək) və səlahiyyətli orqanların qərar verdiyi yerdə gecələmək üçün yer almaq imkanınız olacaq.

Dəstək növü şəxsi vəziyyətindən və ehtiyaclarından asılı olacaq.

İcazə olmadan səfər etdiyiniz Aİ+ ölkəsinin səlahiyyətli orqanları sizə verilən qəbul dəstəyini ləğv etmək qərarına gəldikdə, almağa davam edəcəyiniz dəstək növü şəxsi vəziyyətindən və ehtiyaclarından asılı olacaq.

## HÜQUQİ YARDIM ALA BİLƏRSİNİZ



Qəbul üzrə hüquqlarınızın məhdudlaşdırılması ilə bağlı səlahiyyətli orqanların qərarına qarşı şikayət vermək istəyirsinizsə, vəziyyətinizdən asılı olaraq məhkəmədən əvvəl pulsuz hüquqi yardım və təmsilçilik ala bilərsiniz.

Bu deməkdir ki, sizə hüquq məsləhətçisi və ya hüquqşünas kömək edəcək. Hüquq məsləhətçiləri və ya hüquqşünaslar məhkəmədə sizə hüquqi yardım göstərirlər, maraqlarınızı qoruyurlar və səlahiyyətli orqanlardan və hakimdən asılı deyillər.

Siz həmçinin öz hesabınıza hüquq məsləhətçisi və ya vəkillə məsləhətləşə bilərsiniz.




Səlahiyyətli orqanlar qərara qarşı şikayətin verilməsi qaydası barədə sizə məlumat təqdim edəcəklər.

Daha çox məlumat almaq, o cümlədən pulsuz hüquqi yardım və təmsilçilik üçün siz istənilən vaxt səlahiyyətli orqanlara, qeyri-hökumət təşkilatlarına və ya UNHCR-a müraciət edə bilərsiniz.

# ƏLAQƏ MƏLUMATLARI

Hər hansı bir sualınız və ya qaldığınız müddətdə dəstəyə ehtiyacınız varsa, qeyd olunan orqanlarda işləyən əməkdaşlarla əlaqə saxlaya bilərsiniz:

| qəbul üzrə səlahiyyətli orqan | |
|---|---|
| Reception and Integration Agency | info@piia.lt +370 602 49364 |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Miqrasiya İdarəsi | info@migracija.gov.lt +370 707 67000 |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Dövlət Sərhəd Mühafizə Xidməti | dvks@vsat.vrm.lt +370 707 59305 |

Həmçinin aşağıdakı məsələlərlə bağlı qeyd olunan təşkilatlara müraciət edə bilərsiniz:

## tibbi dəstək



Qəbul və İnteqrasiya Agentliyi

📧 info@piia.lt 📞 +370 602 49364

və ya Agentlik daxilindəki ixtisaslaşmış heyətə müraciət edin

## psixososial dəstək



Vilnüs Baş Yepiskopluğunun "Caritas" Təşkilatı::

📧 kulturunamai@vilnius.caritas.lt

📞 +370 673 48052

Qəbul və İnteqrasiya Agentliyi

📧 info@piia.lt 📞 +370 602 49364

və ya Agentlik daxilindəki ixtisaslaşmış heyətə müraciət edin

## hüquqi məsləhət, yardım və təmsilçilik



Dövlət tərəfindən təminat verilən hüquqi yardım:

📧 teisines.paslaugos@piia.lt 📞 +370 602 49364

Litva Qırmızı Xaç Cəmiyyəti: hüquqi məsləhət

📧 legal@redcross.lt; ailə üzvlərinin və qohumların axtarılması və əlaqələndirilməsi

📧 tracing@redcross.lt

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)**
sığınacaq axtaran şəxslərin və qaçqınların maraq və hüquqlarını qoruyur

| | |
|---|---|
|   | Litvadakı BMTQAK haqqında – BMTQAK Litva<br>BMT Qaçqınlar üzrə Ali Komissarlığının Şimali və Baltik ölkələri üzrə nümayəndəliyi (Stokgolm, İsveç): 📞 +46 10 10 12 800 (Bazar ertəsi – Cümə, 10.00-12.00 Stokholm vaxtı)<br>BMT Qaçqınlar üzrə Ali Komissarlığın Əlaqələndirmə Ofisi (Vilnüs, Litva): 📞 +370 5210 7416 (Bazar ertəsindən cümə gününə qədər, 9:00-17:00 Vilnüs vaxtı)<br>📧 swestprotection@unhcr.org |

| | |
|---|---|
| Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) Vilnüs Ofisi: könüllü qayıdış və reinteqrasiya üzrə yardım | 📧 iomvilnius@iom.int 📞 +370 8 001 2342 |
| Litva Qızıl Xaç Cəmiyyəti: monitorinq | 📧 stebesena@redcross.lt 📞 +370 682 16597 |

Təcili tibbi yardıma ehtiyacınız varsa və ya təhlükədəsinizsə, bu nömrəyə pulsuz zəng edə bilərsiniz:

**təcili tibbi yardım: 112**

**polis: 112**

# MƏNİM QEYDLƏRİM

# MƏNİM QEYDLƏRİM

Bu kitabça yalnız məlumatlandırma məqsədləri üçün nəzərdə tutulub. O özü heç bir hüquq və ya öhdəlik yaratmır. Bu materialın əsas hissəsini Avropa İttifaqının Sığınacaq Agentliyi (EUAA) təqdim edib, və bu kitabçanın surətinin çıxarılmasına və dəyişdirilməsinə EUAA tərəfindən yalnız Aİ-nin üzvü olan dövlətlərə icazə verilir. Aİ-nin üzvü olan dövlətlər və ya digər səlahiyyətli üçüncü şəxslər tərəfindən bu kitabçaya daxil edilən məlumatların dəqiqliyi, məzmunu, tamlığı, qanuniliyi və ya etibarlılığına görə EUAA heç bir məsuliyyət və ya cavabdehlik daşımır. Bu kitabçada mövcud olan məlumatlardan istifadəyə görə nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025